# Keçmiş tələbə yoldaşım Xələfliyə səmimi etiraf məktubu,

## yaxud "Ölməyən sevginin dastanı" əsəri üzərində düşüncələr



*Möhübbət İBRAHİMOVA*

"Ölməyən sevginin dastanı" əsərini öxudum. Açığını deyim ki, kitabı əlimə həvəssiz götürmüşdüm.

Birincisi, mövzu özü cəlbedici deyildi. İstər şifahi, istərsə də yazılı ədəbiyyatda yüzlərlə, minlərlə dəfə təkrarlanan, müxtəlif ədəbi növlərdə işlənib ya nikbin, ya da bədbin notlarla başa çatan sevgi macərası, məhəbbət dastanı. İkincisi də, annotasiyadan anladım ki, İlqarın sevgilisi milliyyətcə erməni qızıdır. Bu da məni məyus etdi. Hətta fikirləşdim ki, Əli Rza tökülən qanları, şəhidləri, qaziləri, minlərlə yurd-yuvası dağıdılan insanları, xarabalığa çevrilən şəhər və kəndləri, xüsusən də doğma Cəbrayılını nə tez unutdu?

Qüsura baxma, mən iki hərbçi zabitin anasıyam. Övladları peşəni seçən analardan fərqli olaraq müharibə dəhşətini daha dərindən yaşamışam. Hətta kiçik nəvəm Fəridin sevinclə dediyi"Qorxma, ay nənə, atamgil plan cızıblar. Deyəsən, bu dəfə ermeniləri qovub Qarabağı alacağıq! "-sözlərini eşidəndə bir anlığa nə deyəcəyimi bilmədim. Tez özümü toplayıb:"Əlbəttə, alacağıq, nənənin balası! "-dedim və balaca uşaqdakı inama, böyük torpaq sevgisinə heyran qaldım.

Əsəri oxumaq istəyəndə xəyalım həmin illərə getdi. Müharibədən əvvəli, 44 günlük Vətən savaşı dövrünü xatırladım və nəhayət, poemanın ilk sətirlərinə göz gəzdirməyə başladım. Gözlədiyimin əksi oldu. Səhifələr bir-birini əvəz etdikcə əsər məni ağuşuna aldı. Bir də gördüm, poemanın epiloqu olan "Son səsi"tamamlamaq üzrəyəm. Vaxtın necə keçməsindən xəbərim olmayıb.

Əsəri oxumamışdan əvvəl keçirdiyim hisslər üçün özümə acığım tutdu. Və bərkdən səsləndim:"Əhsən, Əli Rza! Halal olsun sənə Vətənin havası, suyu, bir də atanın zəhmətlə qazandığı çörək! "

Sən sözün gücü, fitri istedadının qüdrəti ilə bu əsərlə elə bir çələng hörmüsən ki, elə ilmələr atmısan ki, insan heyran olmaya bilmir.

Əziz dost, sən Yaradana söykənərək (-Mən bildiyim yaxşıdan Allah bilən yaxşıdı. ) Ustad Nizami dən güc alaraq elə bir sənət abidəsi yaratmısan ki, bəlkə də, 80-ci illərdən bu günə qədər olan bütün bədii yaradıcılığa bu sənət incisi öz ölməzlik, əbədiyaşarlıq möhürünü vurmuş oldu.

Dəfələrlə işlənən mövzuya təzə don geyindirib yeni forma yaratmısan. Təxmislə bayatını, klassika ilə xalq ədəbiyyatını özünəməxsus ustalıqla əvəzləmisən. Ulu Nizamini, Nigarini, eyni zamanda Xələflini təxmis etmisən.

Bəzən də əsərin ərsəyə gəlməsində, mövzunun seçilməsində danılmaz rolu olan dostun İsaxana xitab edərək sanki ondan güc alır, ilhamına yeni rənglər qatırsan:

*İsaxanın söhbəti ötənlərə yol açır,*
*Yazı eşqim, sevgim də o günlərə qol açır.*

Sonra ilham bulağından axan, tökülən inciləri sətirlərə düzərək yenidən yoluna davam edirsən:

*Sözümlə qayıdaram ölməyən sevgilərə,*
*Xatirə çəmənində solmayan sevgilərə.*




Məhəbbət mövzusunda qələmə aldığın bu poemada keçən əsrin sonlarında baş verən hadisələrə də işıq salmısan. Sergeyin şəxsində şər qüvvələrin aqibətini göstərmisən. Həm də oxucunu bir mövzu ətrafında saxlayıb yormursan. Yeri gəldikcə lirik ricətdən istifadə edir, haşiyə çıxırsan. Sonra hadisəni elə yönləndirib əsas mövzu ilə bağlayırsan ki, insan heyran qalır. Yenidən İlqarla bağlı danışır, zamanın girdabında onun taleyindən,dostlarından, Nanasından xəbər verirsən.

Əsərboyu baş qəhrəmanı mühafizə edir, yıxılmağa, əyilməyə qoymursan. Elə bil bu xalq deyimini ona daim pıçıldayırsan:"Polad sınar, əyilməz".

Bax sən də belə olmalısan, - deyib ona doğru yolu tapmaqda kömək edirsən.Sanki bir ata öz övladını qoruyurmuş kimi.

Əsərin sonu da maraqlı işlənib;nəhayət, haqq öz yolunu tapır. Xeyir şərə qalib gəlir. Xeyirin-İlqarın qələbəsi türkün qələbəsidir. Məncə, bu adi məhəbbət dastanı deyil, sevməyi də, sevdiyini qəlbində gömüb yenidən həyatına davam etməyi bacaran bir türkün hekayətidir. O türkün ki əyilmir, yıxılır, özündə güc taparaq yenidən ayağa qalxır. Daha böyük inamla qaranlıqdan işığa doğru-haqqa doğru yol alır. Bu yol həm də Azərbaycan xalqının 30 illik zaman fasiləsindən sonra hərbi və siyasi cəhətdən güclənərək 44 günlük Vətən müharibəsindəki Zəfər yoludur.

*18.01-2026*